**Dövlət qulluqçuları üçün bəzi təminatlar haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki:

2003-cü il 1 yanvar tarixindən dövlət qulluqçusuna növbəti məzuniyyətə çıxdıqda bir aylıq vəzifə maaşı həcmində müavinət ödənilir;

dövlət qulluqçularının və onların ailə üzvlərinin icbari tibbi sığortası dövlət büdcəsi vəsaitləri hesabına həyata keçirilir.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

dövlət qulluqçularının icra etdikləri vəzifə öhdəliklərinin xarakteri nəzərə alınmaqla, xidməti nəqliyyat və ya müvafiq kompensasiya verilən vəzifələrin siyahısını, kompensasiyaların miqdarını və verilmə qaydalarını hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.

bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 oktyabr 2003-cü il
№ 948